**UOT 930**

# QƏRB TƏDQİQATÇILARI TƏRƏFİNDƏN TÜRK KİMLİYİNİN TARİXİ KONTEKSTDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**Araz ƏLİYEV*∗***

Məqalə redaksiyaya daxil olmuşdur: 25 may 2023; çapa qəbul edilmişdir: 7 avqust 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 25th of May, 2023; accepted: 7th og August, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *türk kimliyi, mədəniyyəti, tarixi, köçəri, vasitəçi, tarix*

## Giriş

Tarixin müxtəlif dövrlərində "türk" kimliyinin mənalandırılması türklər haqqındakı mənfi təsəvvürlərin və stereotiplərin meydana çıxması ilə nəticələnmişdir. Tarixi hadisələrə subyektiv münasibətdən doğan bu cür qüsurlu yanaşmalar elmi xarakterdən uzaq olması ilə fərqlənmiş və türk tarixini obyektiv şəkildə qiymətləndirmək imkanlarından məhrum olmuşdur. Lakin XIX əsrdən etibarən türkologiyanın xüsusi elm sahəsi kimi daha da inkişaf etməsi, türk tarixinin və mədəniyyətinin obyektiv şəkildə tədqiqinin zəruriliyi mövcud təsəvvür və stereotiplərin yenidən nəzərdən keçirilməsini şərtləndirmişdir. Nəticədə türk tarixinə və mədəniyyətinə obyektiv qiymətin verilməsi, türklərin tarixi proses çərçivəsindəki yerinin və rolunun tərəfsiz şəkildə qiymətləndirməsinə şərait yaratmışdır.

Aparılan tədqiqatlar türklərin tarixi proses çərçivəsindəki yeri, rolu və təsirləri ilə bağlı müxtəlif yanaşmaların meydana çıxmasına təkan vermişdir. Türkləri tarixi prosesdə *üstün mədəniyyət daşıyıcısı*, *mədəniyyətə can atan köçərilər* və *mədəniyyətlər arasında vasitəçi* kimi dəyərləndirən bu yanaşmalar sterotiplərdən və qüsurlu təsəvvürlərdən fərqli şəkildə türk tarixini daha obyektiv qiymətləndirmək baxımından xüsusi önəmə malikdir.

### 1. Türklər üstün mədəniyyət daşıyıcısı kimi

Fransız tədqiqatçı Rene Grousset "*Bozqır imperatorluğu*" əsərində türk-monqol tarixinin sadəcə köçərilikdən və qeyri-müəyyən müharibələrdən ibarət sadə tarixi hadisələr bütünü olmadığı qənaətindədir. O, çöllükdə məskunlaşan bu tayfaların daha cənubdakı oturaq mədəniyyətlər üzərindəki təsiri ilə insanlığın ən önəmli hadisələrindən biri hesab edir. Köçəri tayfaların Asiyanın mərkəzindən daha cənuba doğru baş verən köçlərini və hücumları fiziki qanun olaraq nəzərdən keçirir və bir sıra türk-monqol tayfalarının hələ də ibtidai formada yaşamalarının əsas səbəbini məskunlaşdıqları tarixi bölgələrdən kənara çıxa bilməməkdə görür (6, s. 14-15).

Macar türkoloq Lazlo Rasonyi "*Tarixdə türklük*" adlı əsərində də bu mövzuya toxunur, türklərin tarixləri boyu əsasən 36 və 42-ci paralellər arasında yaşadığını, bu coğrafi sərhədlərdən kənara çıxdıqları halda yaşamaq şanslarının azaldığını və digər mədəniyyətlərin təsirinə məruz qalaraq digər xalqların arasında əriyib itdiklərini qeyd edir.

---

∗ *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* arazaliyev1606@gmail.com

Rasonyi bəzi müəlliflərin Asiyanın mərkəzində formalaşmış köçəri mədəniyyətinin türklərin əcdadları tərəfindən yaradıldığını düşündüyünü və daha sonra bu mədəniyyətin digər ünsürlərinin digər xalqlar tərəfindən mənimsənildiyini qeyd edir. O, öz dövrünə qədər köçəri mədəniyyəti ilə bağlı geniş araşdırmaların alman müəlliflər Osvald Menghin və Vilhelm Koppers tərəfindən aparıldığına da diqqət çəkir. Vyana tarixşünaslıq məktəbinin görkəmli nümayəndəsi hesab etdiyi Menghinin bəşəriyyətin yaratdığı üç əsas mədəniyyət mühitindən birinin *köçəri* mədəniyyəti olduğunu bildirir.

Menghin buz dövr ünün sonunda Baykal gölündən Baltik dənizinədək olan ərazilərdə yeknəsəq bir mədəniyyətin formalaşdığını, bu mədəniyyətin əsas xüsusiyyətlərinin isə heyvan sümüklərindən alətlər düzəldən və ovçu-balıqçı köçərilik olduğunu qeyd edir. O bu mədəniyyətin Ural-Altay xalqlarının təməl mədəniyyəti olduğunu bildirir. Daha sonrakı dönəmlərdə bu mədəniyyətin heyvan əhilləşdirilməsi ilə daha da təkmilləşdiyini, totemizm və şamanizmin də qatqısı ilə öz ən yüksək forması olan atlı köçəri və döyüşçü-çoban köçəri mədəniyyətini formalaşdırdığını yazır. Bu yeni formanın bir çox köçəri xalqlar arasında rast gəlinməsinə baxmayaraq, tipik nümunəsinin Altay xalqları olduğunu da qeyd edir. Köçəri mədəniyyətinin formalaşma mərhələləri haqqında ətraflı məlumat verən Menghin bu mədəniyyətin daşıyıcısı olan köçəri xalqların dünya tarixində iki önəmli rolunun olduğunu bildirir. İlkin olaraq, iqtisadi baxımdan heyvan yetişdiriciliyinin inkişaf etdirilməsi, ikinci olaraq isə dövlət qurmaq qabiliyyətini bu önəmli rol olaraq qeyd edir (7, s. 3-4).

Rasonyi bu məqamların digər müəlliflər tərəfindən də etnoqrafik və arxeoloji dəlillərlə sübuta yetirildiyini yazır. O bu məntiqdən yola çıxaraq, hətta çay hövzələrində əkinçiliklə məşğul olan oturaq mədəniyyətlərdə belə dövlət institutunun ortaya çıxmasının əsas səbəbinin köçəri xalqların təsiri olduğunu qeyd edir. Köçəri xalqların davamlı hücumları oturaq mədəniyyətlərdə dövlətin formalaşmasına zəmin hazırladığını, bu səbəblə dünyanın harasında güclü və qüvvətli dövlət varsa, onun formalaşmasında köçəri həyat tərzi keçirən qrupların olduğunu bildirir. Rasonyi daha da irəli gedərək, dövlət qurmaq qabiliyyətinin yalnız Ural-Altay xalqlarına aid olduğunu, bunun əsas səbəbi isə geniş otlaqlarda köçəri heyvandarlıqla məşğul olmağın təşkilatlanma, idarəçilik kimi bir çox zəruri qabiliyyəti formalaşdırdığını yazır (7, s. 4-5).

Rasonyi öz iddialarını dəstəkləmək məqsədilə ingilis tarixçisi Arnold Toynbinin köçəriliklə bağlı qeydlərindən istifadə edir. O, Toynbinin "*Tarixin tədqiqi*" adlı əsərində köçəriliyi oturaq həyat tərzindən, əkinçilikdən daha üstün hesab etdiyini qeyd edir. O, heyvanların əhilləşdirilməsini bitkilərin əhilləşdirilməsindən daha üstün bir fəaliyyət olduğunu, heyvandarlığın paralel şəkildə hərbi qabiliyyətlərin də inkişafına şərait yaratdığını bildirir. Bu baxımdan Toynbi köçərinin həyatını, heç şübhəsiz ki, insan məharətinin zəfəri adlandırır.

Koppers də heyvan yetişdirən köçəri mədəniyyətin ilk olaraq, Mərkəzi Asiyada (bozqır) meydana çıxdığını, hətta hind-avropalı köçərilərin belə, bu mədəniyyəti daha sonradan əldə etdiklərini qeyd edir. O bu mədəniyyətin yaradıcılarının proto-türklər və pre-türklər olduğunu bildirir. Koppers atın ilk əhilləşdirilməsini və bununla birgə başlayan atlı çoban mədəniyyətinin formalaşdırılmasını Mərkəzi Asiyada yaşayan qədim türklərə qədər geriyə çəkməyin mümkün olduğunu qeyd edir. O, bunu ciddi bir tarixi uğur hesab edir və hətta bu mədəniyyətin əsas ünsürlərini hind-avropalıların türklərə borclu olduğunu yazır.

Rasonyi köçəri həyat tərzinin və bu həyat tərzinin formalaşdırdığı mədəniyyətin oturaq mədəniyyətdən geri qalması ilə bağlı qəlibləşmiş baxışları qəbul etmir. O öz dövründə Qərbdə aparılan araşdırmaların bu mövzuda yetəri qədər elmi izahlar verdiyinə diqqət çəkir. Fransız tarixçi Lüsyen Febvreyə istinad edərək, köçəriliyin oturaq həyat tərzindən daha aşağı olması ilə bağlı düşüncələri "köhnə" və dəyişdirilməli olan yanaşma

kimi qəbul etdiyini bildirir. Bir digər müəllif alman tədqiqatçı Fridrix Ratzelin köçəri həyat tərzini mədəniyyətin üstün forması kimi qəbul etməsini də xüsusilə vurğulayır (7, s. 48).

Tanınmış türkoloq Vilhelm Radlof da köçəriliyi böyük otlaqlarda "*başı boş sərsərilik*" olaraq qəbul etməyin yanlış olduğunu bildirir. O, köçəri həyat tərzinin və Mərkəzi Asiyadakı təbii coğrafi şərtlərin burada məskunlaşan xalqların düşüncəsinə və mədəniyyətinə ciddi şəkildə təsir etdiyini, bir sıra zəruri ehtiyacları və bu ehtiyaclara uyğun həll variantları yaratmağı təşviq etdiyini qeyd edir (7, s. 49).

Qeyd edilən məqamlar türklərin üstün mədəniyyət daşıyıcısı olması ideyasının Avropada əsasən macar türkoloqların tədqiqatlarında yer aldığını və birbaşa onlar tərəfindən əsaslandırıldığını deməyə əsas verir. Digər tərəfdən, macar türkologiyası türk kimliyi haqqında müsbət obrazın yaradılması baxımından digər Avropa ölkələrindən kəskin şəkildə fərqlənir. Buna əsas səbəb macarların özlərini türk köklərinə malik xalq kimi qəbul etmələri və türk dünyasının bir parçası hiss etmələri ilə birbaşa bağlıdır.

## 2. Mədəniyyətə can atan türklər

Anqlo-sakson ənənəsinin türk tarixinə və türk mədəniyyətinə baxışı isə ortaq yönləri olmasına baxmayaraq, ümumilikdə digər Avropa ölkələrindən fərqli şəkildə inkişaf etmişdir. Xüsusilə İngiltərə və ABŞ-da aparılan müasir tədqiqatlar türk kimliyini Qərbə inteqrasiya etməyə meylli, "mədəniyyətə can atan", avropalaşmağa cəhd göstərən obraz içərisində təsvir edir. Bu yanaşmanın bütövlükdə türk tarixinə şamil edildiyi, türklərin hələ qədim dövrlərdən etibarən oturaq mədəniyyətlərə can atan köçərilər kimi qiymətləndirildiyi görünür.

ABŞ tədqiqatçısı Peter Qolden "*Türk xalqları tarixinə giriş*" adlı əsərində əksər Qərb tədqiqatçılarının köçəri həyat tərzinə malik xalqların oturaq cəmiyyətlərlə olan münasibətlərinin çox vaxt yanlış dəyərləndirdiyini və bunun "mədəni" dünyaya qarşı "barbar" münasibət kimi nəzərdən keçirildiyini yazır. Lakin o bu reaksiyasının əsas səbəbinin köçərilərin oturaq mədəniyyətlərlə iqtisadi əlaqələrə olan ehtiyacından irəli gəldiyini bildirir. Qoldenin fikrincə, Mərkəzi Asiyada məskunlaşan xalqların iqtisadi sistemləri olduqca dayanıqsızdır və ciddi demoqrafik artımı təmin edəcək gücdə deyil. Digər tərəfdən, heyvandarlığı təməl aldığı üçün bu sistem hər hansı qəzada və yoluxucu xəstəlik zamanı köçərilər üçün olduqca amansız şərtlər yarada bilirdi. Bu cür məhrumiyyətlər və itkilər köçəriləri sağ qalmaq üçün digər oturaq mədəniyyətləri hədəf almağa təşviq edir, üstün silah qabiliyyətlərinə malik döyüşcü qrupların meydana gəlməsinə səbəb olurdu (5, s. 9).

Qolden müasir antropoloji tədqiqatların Asiyanın mərkəzində formalaşan güclü köçəri dövlətlərinin xarici katalizatorların, xüsusilə hərbi və diplomatik mənada təsirlərin nəticəsində şərtləndiyini yazır. Bu katalizatorun ortadan qalxmasının isə təbii olaraq Mərkəzi Asiyadakı dövlət formasının da zəifləməsinə və ortadan qalxmasına səbəb olduğunu qeyd edir. Mərkəzi Asiyadakı əlverişli otlaqlar uğrunda davamlı olaraq bir-biri ilə mübarizə aparan köçərilərin yalnız xarici təsir nəticəsində vahid dövlət institutu altında birləşməsinin mümkünlüyünü dilə gətirir. O bu baxımdan Mərkəzi Asiyada köçəri türklərin güclü dövlətlər yaratmasının əsas səbəbinin də Çinin təsiri olduğu düşüncəsindədir. Güclü və inkişaf etmiş Çinin köçəri xalqları özünə cəlb etdiyini və onları vahid dövlətdə birləşməyə vadar etdiyini, nəticədə Çin üzərinə yeni səfərlərin baş verdiyini yazır. Lakin Çinin zəifləməsi və iqtisadi geriləməsi ilə öz hədəfinə çatan köçəri birliklərinin, o cümlədən böyük imperiyaların qısa dağılmasına və Mərkəzi Asiyada pərakəndəliyə səbəb olduğunu qeyd edir. Onun fikrincə, Çinin iqtisadi olaraq güclənməsi köçəri birliklərinin formalaşmasının təməl şərtidir (5, s. 10-11).

Bu yanaşması ilə Qolden türklərin və daha geniş miqyasda köçərilərin "*barbar*" və

"*dağıdıcı*" olmaqdan daha çox fərqli mədəniyyətlərlə əlaqə qurmaqda maraqlı olduqlarını, bütün fəaliyyətlərinin də məhz bu səbəbə əsaslandığını qeyd edir. Bu baxımdan Qoldenin yanaşması türkləri qismən müsbət obrazda təsvir etsə və "barbar" damğasından xilas etsə də, həlledici məqamlarda öz avropasentrik xarakterini ortaya çıxarır. Müəllif ilk öncə köçəri həyat tərzinin müstəqil şəkildə formalaşmadığını, əsasən, oturaq mədəniyyətlərin içərisindən çıxdığını, dolayısı ilə onların bir hissəsi olduğunu qəbul edir. Digər tərəfdən, türklərin mənşəyi ilə bağlı məsələləri qeyd edərkən, köçəriliyin, o cümlədən dəmirçiliyin və daha sonrakı dövrlərdə ortaya çıxan siyasi idarəetmə formalarının türklərə Mərkəzi Asiyada yaşayan digər xalqların, xüsusilə hind-Avropa mənşəli qəbilələrin təsiri nəticəsində yarandığını qeyd edir (5, s. 83).

**3. Türklər mədəniyyətlər arasında vasitəçi kimi**

Fransız türkologiya məktəbinin nümayəndələri tərəfindən ortaya atılan və dəstəklənən bu yanaşma türk tarixini mənalandırmaq və türk kimliyini tarixi perspektivdə qiymətləndirmək baxımından xüsusi önəmə malikdir. Digər yanaşmalardan fərqlənən bu baxış tərzi türkləri, ümumilikdə isə köçəriləri, mədəniyyətin inkişafında və yayılmasında əsas rol sahibi kimi təqdim edir, onları tarixin hərəkətverici qüvvəsinə çevirir.

Fransız sinoloq Eduard Şavan "*Çin mənbələrində Qərb türkləri*" adlı əsərində Asiyanın ümumi tarixinə nəzərə saldıqda türklərin özünəməxsus yerə və rola malik olduqlarını qeyd edir. O, "*döyüşçü xalq*" adlandırdığı türklərin öz fəthləri ilə bu coğrafiyada önəmli rol oynadıqlarını bildirir. Məhz türklərin sayəsində Mərkəzi Asiyanın xaos, qarışıqlıq və yağmadan başqa bir şey olmayan ərazilərində sülh və nizamın hakim olduğunu, bunun nəticəsində Çin, Hindistan və İran arasında ticari fəaliyyətlərin davamlılığının təmin olunduğunu dilə gətirir. Şavanın fikrincə, türklər heç bir şey istehsal etməmələrinə rəğmən digər xalqlar arasında mübadiləni təmin edən faydalı *vasitəçi* olmuşdur. Bu vasitəçilik nəticəsində təkcə ticarət yox, həmçinin də fikir və düşüncələrin mübadiləsi də baş tutmuş, məzdəkilik və xristianlıq Çinə qədər yayılmaq imkanı əldə etmişdir. Türklər öz varlıqları ilə Asiyanın bir ucundan digərinə gediş-gəlişləri asanlaşdırmış, iqtisadi və düşüncə fəaliyyətlərinin hərəkətliliyini təmin etmişdir (4, s. 330-331).

Digər bir fransız müəllif Leon Cahun da "*Asiya tarixinə giriş*" adlı əsərində türklər və monqolların öz qonşularındakı oturaq mədəniyyətlərin özlərinə uyğun hesab etdikləri ideya və fikirlərini mənimsədiklərini, özününküləşdirdiklərini qeyd edir. Bununla yanaşı, türklər V əsrdən XV əsrə qədər, təxminən 10 əsrlik tarixi dövr ərzində Çin və İran kimi iki mədəniyyət arasında təması təmin etdiklərini, hər iki sivilizasiyaya aid fikirləri və xalqları zorla bir-birləri ilə təmasa məcbur etdiklərini yazır. İranla qonşu olan türklərin onlara Çin təsirini, Çinə qonşu olan türklərin isə onlara İran təsirini ötürdüyünü qeyd edir. Lakin türklərin səbəb olduqları bu davamlı vasitəçilik və dəyişiklik içərisində öz ibtidai qurumlarını və fikirlərini dəyişdirmək imkanları olmamışdır. Cahunun fikrincə, türklər başqalarının pullarından istifadə etdilər, lakin heç vaxt onu özününküləşdirə bilmədilər və bu da onların tarixinin önəmli xüsusiyyəti idi. Cahun türk və monqolların mədəniyyətlərində bu xarici təsirlərin açıq şəkildə göründüyü, bir çox hallarda digər qarışıq sivilizasiyaların sadələşdirilmiş modelləri olduğunu, dolayısı ilə onların təsiri ilə formalaşdığını iddia edir (2, s. 5).

Cahun Avropada Ari tayfalarından daha əvvəl də məskunlaşmış başqa xalqların da ola biləcəyinə diqqət çəkir. Onun fikrincə, mədəniyyət dediyimiz məfhum Avropaya elə türk tayfaları tərəfindən Orta Asiyadan gətirilmişdi. Onun fikrincə, türklər olmasaydı, nə İran, nə Ərəb, nə də Çin mədəniyyətləri öz sərhədlərindən kənara çıxa bilməzdi. Lakin Cahunun burada qeyd etdiyi xüsusiyyətlər türklərin Şərqdə İslamla qaşılıqlı əlaqəyə girdikləri dönəmə qədərki tarixləri ilə bağlıdır (2, s. 173).

Türklərin Asiya coğrafiyasında fərqli mədəniyyətlər arasında oynadıqlarını vasitəçilik və ötürücülük rolu daha həm də bölgədə ticarətin inkişafı ilə bağlantılıdır. Qolden Omeljan Pritsaka istinadən Asiyada köçəri dövlətlərin formalaşmasının fərqli modellərinin də mövcud olduğunu qeyd edir. O, orta əsrlərdə Asiyada ticarətin genişlənməsi və xüsusilə oturaq mədəniyyətlərdə ticarət nəticəsində formalaşan şəhərlərin böyük köçəri imperiyaların formalaşmasında önəmli təsirə malik olduğunu düşünür. Pritsakın fikrincə, köçəri xalqlar öz nəzarətlərindəki ərazilərdən keçən ticarət karvanları vasitəsilə şəhərlərdə istehsal olunan məhsulların dadını almış, bu karvanların və tacirlərin təhlükəsizliyini təmin etməklə özlərinin də ciddi ölçüdə qazanc əldə edəcəyinin fərqinə varmışdır. Məhz bu qazanc faktoru köçəri xalqların geniş ərazilərdə sülhə əsaslanan vahid idarəçilik qurmağa təşviq etmiş, İran və Çin kimi oturaq mədəniyyətlər arasında ticarət əlaqələrinin sürətlənməsinə təkan vermişdir (5, s. 12).

## 4. Türklər mədəniyyəti məhv edən "barbarlar" kimi

Təməllərini avropasentrik düşüncə tərzindən alan bu yanaşma tarixin bütün dövrlərində köçəri xalqlarla mədəniyyəti qarşı-qarşıya qoymuş, birinciləri mədəniyyətin dağıdıcısı və "*barbar*" olmaqda ittiham etmişdir. Öz tarixlərinin böyük bölümündə köçəri həyat tərzini mənimsəmiş türklər də, şübhəsiz ki, bu yanaşmadan kənarda qiymətləndirilməmiş, bu günədək bu yanaşmanın səbəb olduğu ayrıseçkiliyə məruz qalmışdır. Türk tarixinə və mədəniyyətinə ənənəvi-tarixi yanaşma olmasına, müasir tədqiqatçılar tərəfindən tənqid edilməsinə baxmayaraq, bu ideyaların hazırda da Qərb ölkələrində ictimai rəyə böyük ölçüdə təsir göstərdiyi müşahidə olunur.

Müasir ingilis tədqiqatçısı Jerry Toner özünün "*Homerin türkləri*" (2015) adlı əsərində 1453-cü ildə İstanbulun fəthindən sonrakı dövr bütün Avropada "türk" kimliyinin yenidən mənalandırılması ilə nəticələndiyi qeyd edir. O bu dövrdən etibarən "türk" kimliyinin artıq "*barbar*" anlayışı ilə eyniləşdirildiyi, onlara qarşı mübarizənin isə klassik mətnlərdəki "*barbarlara qarşı mübarizəyə*" çevrildiyi müşahidə olunur (9, s. 79-80).

Tonerin fikrincə, xüsusilə qeyd olunan bu mənfi münasibətin ilkin izləri XVII əsr ingilis tarixçisi və səyyahı Corc Sendinin "*Şərqə səyahət*" (1611) əsərində öz əksini tapırdı. Əsərdə türklər artıq klassik dünyanın mirasına hörmət göstərməyənlər olaraq təsvir edilir və bu da onların mədəniyyətdən kənar olduqlarının, hətta bu keyfiyyətlərin qarşısında əngəl yaratdığının göstəricisi kimi təqdim edilirdi. Türklərin məntiq elmini öyrənmədiyi, alın yazısına inandıqları üçün də dünyanı öyrənməyə səy göstərmədikləri və bu amillərin də öz növbəsində yaradıcı bir mədəniyyət inşa etməyə imkan vermədiyi və şüursuz şiddəti doğurduğu göstərilirdi (9, s. 84-87).

Bu yanaşmanın digər tipik nümayəndəsi isə türklər haqqında olduqca mənfi fikirlərə malik olan fransız səyyah, diplomat və tarixçi Fransua Rene de Şatobriandır. O özünü "*Parisdən Qüdsə səyahət*" (1811) adlı əsərində türkləri açıq şəkildə "*barbar*" olaraq təsvir edir. O, türklərin Qədim Yunanıstanın xarabalıqları və xristian yunanların cəsədləri üzərində qurulan nizamlı "*barbarlıq sivilizasiyası*" olduqlarını, türklərin tarixən olduğu kimi öz doğma vəhşiliklərini qoruyub saxladıqlarını qeyd edir (3, s. 8-9).

Türklərə qarşı bu cür mənfi münasibətin obyektiv elmi əsaslı olmadığı, əksinə subyektiv dəyərləndirilmələr və siyasi konyukturaya uyğun həyata keçirilən təbliğatın nəticəsi olduğu Qərb müəlliflərinin özləri tərəfindən etiraf edilir. Alman müəllif Magret Spohn "*Hər şey türk işi: Almanların türklər haqqındakı 500 illik stereotipləri*" (1996) adlı əsərində qeyd edir ki, Avropada "*zalım və barbar türk*" obrazı Katolik kilsəsinin cəmiyyətin bütün siniflərini əhatə edən birliyini və idarəedici funksiyasını yenidən qura bilmək üçün şüurlu şəkildə həyata keçirilirdi. Nəticədə, bütün diqqət xarici düşmən, yəni türklər üzərinə yönəldilir, daxildəki siyasi və dini gərginlik bir müddətlik də olsa arxa plana atılırdı (8, s. 54).

Türklər haqqında formalaşan stereotiplərin və mənfi təsəvvürlərin əsas mənbəyinin subyektiv dəyərləndirmələr olduğunu qeyd etsək də, bu istiqamətdə də fərqli yanaşmaların olduğu vurğulanmalıdır. Özü də bir səyyah olan və ingilis düşüncəsində "türk" kimliyinin müsbət obrazını yaradan Fred Burnabinin "*At belində Anadolu*" adlı əsəri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Burnabi əsərinin əvvəlində İngiltərədə türkləri "*xristianlara qarşı qətliam törədən, qaniçən və barbar*" kimi qələmə verdiklərini, lakin bu iddiaların ciddi şəkildə araşdırılmasına ehtiyac olduğunu qeyd edir (1, s. 32). O, gördükləri və şahid olduğu hadisələrin fonunda İngiltərədə oturub türk millətinin şərəfini ləkələyən, onları bütün dünyanın şər əməllərinə sahib olmaqda ittiham edən şəxsləri Anadolunu gəzməyə dəvət edir. Özlərini xristian adlandıran yazarların bir çox mövzuda türklərdən dərs almalarına ehtiyac olduğunu bildirir (1, s. 115).

Qeyd olunan məqamlar türklər, onların tarixi və mədəniyyəti ilə bağlı stereotiplərin, mənfi təsəvvürlərin elmi xarakterli olmadığını, əksinə elmi tədqiqatlar tərəfindən qərəzli və təbliğat vasitəsi kimi qəbul edildiyini deməyə əsas verir. Türklər haqqında məhdud və qəlibləşmiş məlumatlar əsasında formalaşan bu yanaşmanın daha sonrakı dövrdə tədricən sıradan çıxdığı və öz yerini daha ciddi, obyektiv tədqiqatlara verdiyi müşahidə olunur.

**Nəticə**

Türklər haqqında tarixi etibarilə daha qədim, daha geniş yayılmış və digərlərindən fərqli xarakteri ilə seçilən yanaşma onların bütövlükdə "*barbar*", "*mədəniyyət düşməni*" kimi qələmə verilməsi ilə bağlıdır. Lakin bu yanaşma özlüyündə subyektiv və qeyri-rasional dəyərləndirmələrə yer verməsi, türk tarixi və mədəniyyətinin obyektiv tədqiqindən uzaq olması ilə seçilir. Elmi tədqiqatlardan çox səyyahların şəxsi düşüncələri əsasında formalaşan bu təsəvvürlər, təəssüf ki, Qərbin ictimai rəyində bu gün də davam etməkdədir.

XX ərdə türk tarixinə və türklərin tarixi prosesdəki roluna dair formalaşan yeni yanaşmalar isə daha obyektiv olması və reallığı əks etdirməsi baxımından xüsusilə önəmlidir. Türkləri üstün mədəniyyət daşıyıcıları, mədəniyyətə can atan və mədəniyyətlərarası vasitəçi kimi təqdim edən bu yanaşmalar türklərin tarix səhnəsindəki yerini daha uğurlu və dolğun şəkildə təsvir edir. Elmi tədqiqatlar və arxeoloji dəlillər vasitəsilə möhkəmləndirilən bu baxışlar türk tarixi haqqındakı stereotiplərin və təsəvvürlərin obyektiv biliklə əvəzlənməsinin tərkib hissəsidir.

Digər tərəfdən, məqalədə bəhs etdiyimiz müasir yanaşmalar, Qərbdə türk tarixi və mədəniyyəti ilə bağlı hakim təsəvvürlərin dəyişilməsi istiqamətində önəmli addımdır. Türklərin mədəniyyətdən kənar köçərilər yox, əksinə, özünəməxsus mədəniyyət sahibi, mədəniyyətin daşıyıcısı və ötürücüsü olduqlarının akademik sübutlarıdır.

## ƏDƏBİYYAT


1. Burnaby F. At Sırtında Anadolu. İstanbul: İletişim, 2005, 425 s.
2. Cahun L. Asya Tarihinə Giriş. İstanbul: Seç, 2006, 326 s.
3. Chateaubriand F. R. İtineraire de Paris a Jerusalem et de Jerusalem a Paris. Bernardin-Bechet, 1859, 461 p. (https://archive.org/details/itinrairedepari16chatgoog/page/n22/mode/2up)
4. Chavennes E. Çin Kaynaklarına Batı Türkleri. İstanbul: Selenge, 2007, 491 s.
5. Golden P. Türk Halkları Tarihine Giriş. Ankara: Karam, 2006, 594 s.
6. Grousset R. Bozkır İmparatorluğu. İstanbul: Ötüken, 1996, 513 s.
7. Rasonyi L. Tarihte Türklük. Ankara: AUB, 1993, 425 s.
8. Spohn M. Her Şey Türk İşi, Almanların Türkler Hakkında 500 Yıllık Önyargıları. İstanbul: Yapı Kredi, 1996, 177 s.
9. Toner J. Homerosun Türkleri. İstanbul: T&K, 2015, 239 s.

**_Резюме_**

**_Араз Алиев_**

**_Оценка турецкой идентичности в историческом контексте западными исследователями_**

Исследования по истории Турции традиционно подчеркивают кочевой образ жизни тюрков, не уделяют много места культурной и интеллектуальной деятельности, и эти моменты рассматриваются в тени исторической деятельности. Культурное наследие Турции оценивается ограниченно, вне научно-философского мышления, больше на литературном уровне. Турецкая мифология, система верований и религиозная идентичность не становятся предметом исследования, турецкая история оценивается с того момента, как тюрки проявили свое политическое присутствие на Ближнем Востоке и внутри мусульманской религии. В отличие от работ, основанных на стереотипах и субъективных оценках, в произведениях, являющихся продуктом объективного исторического исследования, заметны следы европоцентристского подхода. Эти моменты, в свою очередь, требуют объективных оценок и серьезных научных исследований турецкой истории и культуры.

Хотя первоначальные представления о тюрках на Западе формировались под влиянием христианства, наблюдается, что после избавления от влияния этих стереотипов создавались очень положительные представления о тюрках и писались произведения. Подходы, в основном регулируемые политической конъюнктурой, время от времени тяготели к негативу, но в целом сохранили свою позитивную ауру. Однако более зрелую и научную форму эти исследования приняли в XX веке.

Новые исследования, проведенные западными авторами в XX веке, показывают, что турецкая философская мысль была выведена из рамок ориентализма, самостоятельно переоценена и принята, и подготавливает благоприятную почву для проведения будущих исследований в этом направлении.

В статье рассмотрены четыре основных направления подхода западных исследователей к турецкой идентичности. При анализе каждого направления были ссылки на работы западных авторов и даны общие подходы. Основная цель статьи – определить основные направления отношения к турецкой идентичности в творчестве западных авторов. Она заключается в определении основных особенностей подходов к турецкой идентичности, независимо от того, являются ли эти направления негативными или позитивными.

**_Ключевые слова:_** *турецкая идентичность, культура, история, кочевник, посредник, история*

**_Summary_**

**_Araz Aliyev_**

**_Evaluation of Turkish İdentity in Historical Context by Western Researchers_**

Studies on Turkish history traditionally emphasize the nomadic way of life of Turks, do not give much space to cultural and intellectual activities, and these points are considered in the shadow of historical activity. Turkish cultural heritage is evaluated in a limited way, outside of scientific and philosophical thinking, more at the literary level. Turkish mythology, belief system and religious identities do not become the subject of research, Turkish history is evaluated from the moment Turks showed their political presence in the Middle East and within the Muslim religion. In contrast to the works based on stereotypes and subjective evaluations, traces of the Eurocentric approach are noticeable in the works that are the product of objective historical research. These points, in turn, require objective evaluations and serious academic research on Turkish history and culture.

Although the initial ideas about Turks in the West were formed by the influence of Christianity, it is observed that after getting rid of the influence of these stereotypes, very positive ideas about Turks were created and works were written. The approaches, which are mainly regulated according to the political conjuncture, have tended to be negative from time to time, but in general, they have preserved their positive aura. However, these studies took a more mature and scientific form in the 20th century.

New research conducted by Western authors in the 20th century shows that Turkish philosophical thought was removed from the framework of Orientalism, independently re-evaluated and accepted, and it prepares a favorable ground for conducting future research in this direction.

The article examines four main directions of approach of Western researchers to Turkish identity.

When analyzing each direction, references were made to the works of Western authors and general approaches were given. The main goal of the article is to determine the main directions of attitude towards Turkish identity in the works of Western authors. It consists in identifying the main features of approaches to Turkish identity, regardless of whether these directions are negative or positive.

***Key words:*** *Turkish identity, culture, history, nomad, mediator, history*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.